**Günay Tanriverdi qızı Əliyeva**

**UOT:339.9;339.9:061; JEL: F10; F19.**

# Azərbaycanın Almaniya ilə iqtisadi əməkdaşlığının genişləndirilməsi perspektivləri

***Xülasə***

*Məqalədə Azərbaycanın Almaniya ilə iqtisadi sahədə əməkdaşlığının genişləndirilməsinin potensial imkanları, Azərbaycan və Almaniya arasında enerji üzrə biznes-iqtisadi əməkdaşlıq sahələri, Avropanın enerji təhlükəsizliyi və Almaniyanın enerjiyə olan tələbatı və onun təmin edilməsində Azərbaycan üçün yaranan imkanlar tədqiq olunur. Burada Azərbaycan şirkətlərinin səmərəli xarici investisiya fəaliyyətinin formalaşdırılması məqsədilə Almaniya ilə iqtisadi münasibətlərin Azərbaycan üçün əlverişli istiqamətdə inkişaf etdirilməsi üzrə təkliflər irəli sürülür. Həmçinin Azərbaycana birbaşa xarici investisiyaların cəlb edilməsi kontekstində Almaniya ilə müştərək müəssisələrin yaradılması və qarşılıqlı investisiya qoyuluşlarının artırılması üzrə mövcud problemlər aşkara çıxarılır. Almaniya-Azərbaycan müştərək müəssisələrinin yaradılması və qarşılıqlı investisiya qoyuluşunun əhəmiyyəti təhlil edilir və müvafiq sahələr üzrə bu imkanların reallaşdırılması yolları göstərilir. İnkişaf perspektivi baxımından Almaniya ilə birgə müəssisə yaradılması və ya BXİ (birbaşa xarici investisiya) cəlbinin artırılması üçün Azərbaycanda kimya və metallurgiya, maşınqayırma sənayeləri və tikinti materiallarının istehsalı, yeyinti və yüngül sənaye, aqrar sektorun maddi-texniki bazasının gücləndirilməsi məqbul hesab edilir.*

***Açar sözlər**: iqtisadi əməkdaşlıq, iqtisadi əlaqələr, enerji təhlükəsizliyi, xarici investisiya, xarici kapital, birbaşa investisiyalar, müştərək müəssisələr*



## Giriş

Müasir dövrdə beynəlxalq iqtisadi əlaqələrin inkişafı dünya ölkələrinin qlobal iqtisadiyyata dərin inteqrasiyasını sürətləndirərək, milli iqtisadiyyatın səmərəli strukturunun formalaşmasına, müasir texnologiya və optimal idarəetmə təcrübəsinin mənimsənilməsinə şərait formalaşdıraraq 4-cü sənaye inqilabının tələblərinə uyğunlaşma üçün geniş imkanlar yaradır. Bu baxımdan, Azərbaycanla eyni kontinentdə yerləşən, əhatə və nüfuz dairəsinə görə dünyanın əsas iqtisadi və siyasi güc mərkəzlərindən biri olan Avropa İttifaqı, o cümlədən Avropa iqtisadiyyatının lokomotivi hesab olunan Almaniya ilə iqtisadi əməkdaşlığını genişləndirməsi obyektiv zərurətə çevrilmişdir. Məhz bunu nəzərə alaraq, Almaniya kimi inkişaf etmiş Avropa ölkəsinə ixracda rəqabətli olmaq ölkə iqtisadiyyatında xarici birbaşa investisiya cəlbinin stimullaşdırılmasını tələb edir, birgə və s. formada müəssisələrin yaradılması qeyri-neft ixracının artırılması baxımından vacib hesab olunur. Son beş ildə Azərbaycanda həyata keçirilən dərin struktur islahatlar ölkənin dünya iqtisadiyyatına inteqrasiya səviyyəsini artırmaqdadır. Belə ki, ölkənin xarici ticarət partnyorlarının sayı 1995-ci ildəki 67-dən hazırda 185-ə çatmış, xaric iqtisadi fəaliyyət iştirakçılarının sayı isə 25 mini üstələmişdir. Eyni zamanda ölkədə kapitalın beynəlxalq hərəkəti liberallaşdırılmışdır. Qeyri-neft sektoruna qoyulan birbaşa xarici investisiyaların həcmi 2019-ci ildə 930,1 mln. dollara çatmışdır.

*©Günay Tanriverdi qızı Əliyeva AMEA İqtisadiyyat İnstitutu, doktorant. E-mail:gunay_pasha@yahoo.com*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

**Almaniyanın enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycan üçün yaranan imkanlar**

Bu gün dünya iqtisadiyyatının həcmi 131,7 trilyon dollar təşkil edir. Bunun 49%-i inkişaf etmiş dövlətlərə, 51%-i isə inkişaf edən dövlətlərə məxsusdur. Almaniya dünya iqtisadiyyatının 3,4%-ə, Avropa Birliyinin isə 22,7%-ə malik olmaqla dünya sıralamasında 5-ci yerdədir. Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatının 0.11%-ni (76-ci yer), inkişaf edən iqtisadiyyatların 0.13%-ni, MDB iqtisadiyyatının isə 2%-ni təşkil edir. Dünya ticarəti 2020-ci ildə 9% azalmışdır. Dünya ticarətinin 53%-i inkişaf etmiş dövlətlərin, 47%-i isə inkişaf edən dövlətlərin payına düşür. Azərbaycanın payına qlobal ixracın cəmi 0.14%-i düşür [9; 10]. Bütün bunlar qlobal iqtisadiyyatda Azərbaycanın payının artırılması üçün potensial imkanların mövcud olduğunu göstərir. [6]. Azərbaycanda neft gəlirləri və böyük investisiya layihələri sayəsində başlanan iqtisadi əməkdaşlıq Almaniya ilə iqtisadi əlaqələrdə də özünü göstərir. Azərbaycan bu gün Almaniya üçün Qafqazda ən vacib iqtisadi tərəfdaşdır. 2012-ci ildə Almaniya-Azərbaycan Ticarət Palatasının təsis olunması ilə iqtisadi münasibətlər sabit institusional çərçivəyə keçirilmişdir. Azərbaycan və Almaniya arasında indiyədək 70-dən çox sənəd imzalanıb və Azərbaycanda 154 Almaniya şirkəti qeydiyyatdan keçib. Almaniya şirkətləri dövlət əsaslı layihələrdə podratçı qismində də iştirak edirlər. Azərbaycan və Almaniya investisiya sahəsində də əməkdaşlıq edir. Almaniya tərəfindən Azərbaycan iqtisadiyyatına 572 mln. dollar, Azərbaycan tərəfindən isə Almaniyaya 124 mln. dollar investisya yatırılıb [4]. Almaniya Avropa inteqrasiya prosesinin dəstəklənməsində mühüm marağa malikdir. Avropa Birliyi, xüsusilə Almaniya ilə Azərbaycanın xarici iqtisadi və ticarət əlaqələrinin inkişaf etdirilməsi, bu əsasda iqtisadiyyatın aparıcı sahələrinin qlobal dəyər zəncirinə səmərəli inteqrasiyası Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının əsas istiqamətlərindən biri kimi də qəbul etmək olar. Almaniya ilə iqtisadi əlaqələrinin genişləndirilməsi son dövrlər daha da aktuallaşmış iki problemin həllinə – Azərbaycanda iqtisadiyyatın, o cümlədən xarici ticarətin diversifikasiyası və dayanıqlı iqtisadi artımın formalaşmasında mühüm rol oynaya bilərvə Alman kapitalının Azərbaycana cəlb edilməsi imkanlarını daha tam qiymətləndirməyə və həm də indiki şəraitdə ölkəmiz üçün çox vacib olan iqtisadi artımı sürətləndirə bilər. Enerji sahəsində Azərbaycanın Almaniya ilə çoxşaxəli əməkdaşlığı mövcuddur və bu əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar da var. Azərbaycanın Almaniyaya ixracında əsas payı neft və neft məhsulları təşkil edir. Almaniyanın UNİPER şirkəti ilə neft-qaz istehsalında enerji səmərəliliyinin artırılması, Bakı və Abşeron yarımadasında qaz təchizatı şəbəkəsinin müasirləşdirilməsi, eləcə də elektroenergetika sektorunda "Simens" və digər alman şirkətləri ilə bir sıra yeni layihələrin həyata keçirilməsi reallaşmaq üzrədir. Ölkəmizdə elektrik stansiyalarının diaqnostika və auditinin aparılması, generasiya güclərinin və elektrik enerjisinin ötürücü sisteminin optimallaşdırılması və bərpası proqramlarının hazırlanmasında Almaniyanın VPC, ENERCO kimi şirkətlərlə qurulan əməkdaşlıq öz bəhrəsini verməkdədir. Hazırda bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi istiqamətində "SimensGamesa" şirkətinin timsalında bu sahədə Almaniya ilə əməkdaşlığı uğurla davam etdirirlər. Azərbaycanın biznes imkanlarının və "Made in Azerbaijan" brendinin təşviq olunması məqsədilə Almaniyada keçirilən biznes forumlar ikitərəfli iqtisadi-ticari əlaqələrin daha da genişlənməsinə xüsusi töhfə verir və ikitərəfli iqtisadi münasibətləri yeni mərhələyə qaldırır [7]. Hazırda alternativ və bərpa olunan enerji mənbələri Azərbaycanda perspektivli sahə hesab olunur. Bu sahənin inkişafı üçün Azərbaycanın potensialı kifayət qədərdir [5]. Federal Hökumət alman şirkətlərinin xarici ticarət təşviqini bir çox üsullarla dəstəkləyir.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Buna ixracat zəmanətləri, almanlar üçün investisiya zəmanətləri, birbaşa investisiyalar daxildir [11].

**Azərbaycan iqtisadiyyatına yönəldilən xarici investisiyaların mövcud vəziyyəti**

Ölkə iqtisadiyyatına qoyulan xarici investisiyaların həcminin ildən-ilə artması onu göstərir ki, Azərbaycan Respublikasında xarici kapitalın cəlb olunması və onun fəaliyyətinin tənzinlənməsi üçün zəruri huquqi, iqtisadi və təşkilati baza formalaşmış, xüsusən birbaşa investisiya qoyuluşlarına münasibətdə zəmin yaradılmışdır. Azərbaycanda xarici investisiyaların hüquqi rejimi, ilk növbədə, dövlətin milli qanunvericiliyi ilə tənzimlənir. Eyni zamanda, həmin sahədə beynəlxalq hüquq normalarının və beynəlxalq razılaşmaların da böyuk əhəmiyyəti vardır. Birbaşa investisiya ixrac edən ölkələrlə, xüsusən ABŞ, Almaniya, Yaponiya, Fransa, Böyük Britaniya, Belçika, İsveçrə və İtaliya ilə investisiyaların təminatı haqqında bağlanılan ikitərəfli sazişlərdə əsas məqsəd birbaşa investisiyaları hər cür risklərdən qorumaqdır. Azərbaycana qoyulan xarici investisiyanın təqribən 33,3 faizi Fransanın, 26,8 faizi Turkiyənin,13,9 faizi Yaponiyanın, 9,5 faizi ABŞ-ın, 5,8 faizi Böyük Britaniyanın, 2,4 faizi BƏƏ-nin, 2,4 faizi İranın, 1,4 faizi Almaniyanın, 4,5 faizi isə başqa ölkələrin payına düşür. İtaliya şirkətləri enerji layihələrində Azərbaycan Dövlət Neft Şirkəti və İtaliyanın "Eni-Acip" şirkəti arasında "Kürdaşı" blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü enerji layihələrində xüsusi yer tutur. [4]. Qeyri neft-qaz sektorları üzrə əsas kapitala yönəldilmiş ümumi investisiyalar 2005-2019-cu illər ərzində 6,3 dəfə, o cümlədən daxili investisiyalar üzrə 6,7 dəfə və xarici investisiyalar üzrə 4,7 dəfə artmışdır. 2005-ci ildə cəmi investisiyaların 22,6%-i; 2010-da 7,6; 2015-də 15,7; 2016-da 34,8; 2017-də 26,6; 2018-də 16,6; 2019-da 17,6%-i xarici investisiyalar olmuşdur. Neft-qaz sektorunda əsas kapitala yönəldilmiş ümumi investisiyalar 2005-2019-cu illər ərzində 1,6 dəfə, o cümlədən daxili investisiyalar üzrə 4,4 dəfə və xarici investisiyalar üzrə 1,1 dəfə artmışdır. 2005-ci ildə neft-qaz sektorunda cəmi investisiyaların 85,5%-i; 2010-da 63,6; 2015-də 77,3; 2016-da 78,7; 2017-də 74,1; 2018-də 58,4; 2019-da 58,9%-i xarici investisiyalar olmuşdur. 2005-2019-cu illər ərzində Azərbaycan iqtisadiyyatına bütün mənbələrdən yönəldilən investisiyalar 2,1 dəfə, o cümlədən xarici investisiyalar 1,5 dəfə artmışdır. 2005-ci ildə cəmi investisiyaların 68,7%-i xarici investisiyalar təşkil edirdisə, sonrakı illərdə bu pay azalmış: 2010-da 46,9; 2015-də 54,8; 2017-də 64,2; 2018-də 54,1; 2019-da 48,5% olmuşdur. İdxalın strukturunda xarici investisiyalar hesabına gətirilmiş maşın-avadanlıqların və malların xüsusi çəkisi 8.1% təşkil edərək 0.8 mlrd.$ olmuşdur. Birbaşa investisiyalar formasında xaricdən cəlb olunmuş sərmayələrin ümumi məbləği 4.5 mlrd.$ (5.9% artım) olmuşdur. Ölkə iqtisadiyyatına yatırılmış birbaşa investisiyaların strukturunda neft-qaz sektorunun xüsusi çəkisi 86.6% təşkil etmişdir. 2020-ci ildə tədiyə balansında birbaşa investisiyalar maddəsinin neft-qaz sektoru üzrə xalis maliyyə öhdəliklərinin (55.5 mln.$) azalması cəlb olunmuş investisiya ilə (4 527.7 mln.$) kapitalın repatriasiyası (4 472.2 mln.$) arasındakı fərqdən formalaşır. Qiymətləndirmələrə görə qeyri-neft sektoruna cəlb olunmuş birbaşa investisiyaların ümumi məbləği 605.6 mln.$ (34.9% azalma) olmuşdur.

Xarici investisiyaların əksəriyyəti: 2005-ci ildə 82,4%-i; 2010-da 43,8; 2015-də 69,8; 2017-də 62,6; 2018-də 49,9; 2019-da 60,0%-i birbaşa investisiyalar olmuşdur. Lakin onun payı 2005-2019-cu illər ərzində 22,4% bəndi aşağı düşmüşdür. Bunun əsas səbəbi neft sektoruna qoyulan irihəcmli birbaşa xarici investisiyaların 2015 və 2017-ci illər istisna olmaqla, hər il azalması ilə bağlıdır. Belə ki, neft sektoruna qoyulan BXİ-nin həcmi 2005-ci illə müqayisədə 454,7 mln. dollar və ya 12,% azalmışdır. Təhlil olunan illərdə qeyri-neft sektoruna qoyulan BXİ 4,0 dəfədən çox artmış, onun BXİ-də payı 5,7%-dən 21,8%-ə yüksəlmişdir. Ölkəmizə xarici investisiya kimi əhəmiyyətinə görə digər əsas mənbə



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

maliyyə kreditləridir. Onun həcmi 2005-2019-cu illər ərzində 2,5 dəfə artmışdır. Xarici investisiyaların: 2005-ci ildə 14,3%-i; 2010-da 41,3; 2015-də 20,6; 2017-də 19,6; 2018-də 35,0; 2019-da 24,4%-i maliyyə kreditlərindən ibarət olmuşdur. Neft Bonusunun ancaq 2018 və 2019-cu ildə əhəmiyyətli payı: müvafiq olaraq – 5,5 və 6,3% təşkil etmişdir. Digər investisiyalar 2005-ci illə müqayisə də xeyli üstün templə: 2010-cu ildə 7,5 dəfə; 2015-ci ildə 6,3 dəfə; 2017-ci ildə 9,9 dəfə artsa da, 2018-ci ildə bu artım 4,9 dəfəyə, 2019-cu ildə 4,1 dəfəyə düşmüşdür. Bu mənbənin xarici investisiyalarda payı: 2005-ci ildə 3,3%-i; 2010-da 14,9; 2015-də 9,6; 2017-də 17,8; 2018-də 9,7; 2019-da 9,4% olmuşdur. 2018-ci ildə Azərbaycan iqtisadiyyatına birbaşa xarici investisiyalar $4,1 mlrd. təşkil etdiyi halda. 2019-cu ildə 4,9% artaraq $4,3 mlrd. olub.2019-cu il üçün tədiyə balansına görə, bu birbaşa xarici investisiyaların 78,3%-i neft-qaz sektoruna qoyulyb. Ötən il ərzində qeyri-neft sektoruna birbaşa xarici investisiyaların həcmi $930,1 mln. (azalma 3,8%), xüsusi çəkisi 21,7% təşkil edib. 2015-ci ildən bəri Azərbaycan iqtisadiyyatının üzləşdiyi əsas çağırışlardan biri də məhz birbaşa xarici investisiyaların azalmasıyla bağlıdır. Xüsusən qeyri-neft sektoruna, istehsal, emal sənayesi və kənd təssərrüfatına birbaşa xarici investisiyaların azalması iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft iqtisadiyyatının davamlı inkişafı, idxaldan asılılığın azaldılması, ixrac potensialının artırılması istiqamətində qarşıya qoyulan hədəflərə nail olmaqda əsas maneə kimi qeyd oluna bilər.

Ölkə iqtisadiyyatına, xüsusən qeyri-neft sektoruna birbaşa xarici investisiyaların azalması ilə bağlı çağırışlara cavab verilməsi üçün Azərbaycan hökuməti bir sıra addımlar atıb. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində 2025-ci ilədək hökumətin qarşısına qoyduğu 4 hədəf indikatorunun birincisi qeyri-neft sektoruna yönəldilmiş investisiyaların qeyri-neft ÜDM-dəki payının 4 faizə çatdırılmasıdır. 2019-cu ildə investisiya cəlbediciliyinin stimullaşdırılması məqsədilə investisiya fəaliyyəti haqqında yeni qanun layihəsi və birbaşa xarici investisiyaların təşviqinə dair Strategiya, “Azərbaycana sərmayə” (“Invest in Azerbaijan”) və “Azərbaycanda ilk” (“First in Azerbaijan”) təşviq mexanizmləri, ölkədə fəaliyyət göstərən müəssisələrin qlobal dəyər zəncirlərinə qoşulmasına dair Tədbirlər Planı hazırlanıb.[4]. Aparılan təhlillər göstərir ki, qeyri-neft sektoruna BXİ cəlb edilməsi baxımından xarici investorlar üçün Azərbaycan iqtisadiyyatında hələlik cəlbedici görünən sahələr əsasən qeyri-ticarət sektorlarıdır (tikinti, anbar təsərrüfatı), istehsal sahələri, xüsusilə emal sənayesi və kənd təssərrüfatı BXİ-nin marağını ciddi şəkildə cəlb edə bilməyib. Bu baxımdan, hazırda Azərbaycanda iqtisadi inkişaf prioritetəri sırasında əsas vəzifə kimi birbaşa xarici investisiyaların qeyri-neft sektoruna cəlb edilməsi, ələlxüsus də istehsal və emal sənayesinə yönəldilməsidir. İnvestisiyaların cəlb edilməsi üçün universal plan ola bilməz. Hər bir ölkə öz xüsusi şəraitinə və mühitinə əsaslanaraq, həmçinin öz ehtiyaclarını və imkanlarını nəzərə alaraq öz strategiyasını işləyib hazırlamalıdır. Bu strategiya sağlam və sabit siyasi, iqtisadi və normativ-hüquqi mühitlə həmahəng olan yaxşı idarəetmə, şəffaflıq, proqnozlaşdırma və iqtisadi açıqlıq kimi amilləri ehtiva edir. Xarici investorlar üçün əlverişli biznes mühitinin həlledici amilləri təhlükəsizlik və əməkdaşlıq, makro-iqtisadi sabitlik, yaxşı idarəetmə və qanunun aliliyi, kifayət qədər institusional və insan amili, mühüm əhəmiyyət kəsb edən yaxşı inkişaf etmiş maliyyə və fiziki infrastrukturlardan ibarətdir.

Azərbaycan iqtisadiyyatında neft sektorunun əhəmiyyətli inkişafı həmin sektora birbaşa xarici investisiyaların daha cox və sürətli tətbiqi ilə əlaqələndirmək olar. Azərbaycanın neft layihələrinə birbaşa qoyulan investisiyalar ölkə iqtisadiyyatına yatırılan butun investisiyaların 60 faizi yaxınını təşkil edir. Məhz ölkənin neft sektoruna yatırılan investisiyalar özünü doğrultduğundan, qeyri-neft sektoruna, xüsusən iqtisadiyyatın emal,



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

hazır məhsullar istehsalı və xidmət sahəsinə də xarici investisiyaların yatırılmasına maraq artmaqdadır. Bunun nəticəsidir ki, dünyanın ən aparıcı beynəlxalq maliyyə qurumları – Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, İslam Bankı, Beynəlxalq Əməkdaşlıq üzrə Yaponiya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və digərləri Azərbaycana böyük həcmdə xarici investisiya formasında kreditlər ayırmışlar. Neft-qaz və qeyri neft-qaz sektorları üzrə əsas kapitala yönəldilmiş ümumi investisiyalar 2005-2019-cu illər ərzində 3,2 dəfə, o cümlədən daxili investisiyalar üzrə 6,1 dəfə və xarici investisiyalar üzrə 2,7 dəfə artmışdır. 2005-ci ildə cəmi investisiyaların 63,5%-i; 2010-da 24,3; 2015-də 43,2; 2016-da 58,9; 2017-də 49,7; 2018-də 31,1; 2019-da 30,6%-i xarici investisiyalar olmuşdur. Neft-qaz sektorunda əsas kapitala yönəldilmiş ümumi investisiyalar 2005-2019-cu illər ərzində 1,6 dəfə, o cümlədən daxili investisiyalar üzrə 4,4 dəfə və xarici investisiyalar üzrə 1,1 dəfə artmışdır. 2005-ci ildə neft-qaz sektorunda cəmi investisiyaların 85,5%-i; 2010-da 63,6; 2015-də 77,3; 2016-da 78,7; 2017-də 74,1; 2018-də 58,4; 2019-da 58,9%-i xarici investisiyalar olmuşdur. Qeyri neft-qaz sektorları üzrə əsas kapitala yönəldilmiş ümumi investisiyalar 2005-2019-cu illər ərzində 6,3 dəfə, o cümlədən daxili investisiyalar üzrə 6,7 dəfə və xarici investisiyalar üzrə 4,7 dəfə artmışdır.

Almaniya qabaqcıl texnologiyasını və mallarını başqa ölkələrdə yerləşdirə bilən və iqtisadi cəhətdən nümunə rolunu oynayan ölkədir. Azərbaycanın Avropa və Asiyanın qovşağında yerləşməsi, hər iki qitənin qabaqcıl dövlətləri ilə geniş əlaqələr qurmaq istəyi, tutduğu mövqe - Azərbaycanı Avropa siyasəti üçün önəmli yerə çıxarır. Almaniya Azərbaycanda möhkəmlənməklə regionda iqtisadi və strateji üstünlük qazana bilər. Bundan əlavə, Qafqaz və Xəzər regionunda böyük potensiala malik Azərbaycanın makrostrukturu ixrac və investisiyalar üçün ən əlverişli iqtisadi sektorları – karbohidrogen ehtiyatları, bərpa olunan enerji, daşınmaz əmlak sektoru, neft-kimya və kimya sənayesi, qısa metal profil, nəqliyyat və tikinti sənayesi, major polad şirkətləri Almaniyalı investorlara sərmayə yatırımları üçün geniş imkanlar təqdim edir. Azərbaycanın təbii müalicə ehtiyatları – müxtəlif xəstəliklərin müalicəsi, profilaktikası və istirahətin təşkili üçün yararlı olan mineral sular, müalicəvi palçıqlar, xüsusən Naftalan nefti, şor göllər, müalicəvi iqlim, çimərliklər Almaniya investorları üçün yatırım və ya yeni kurort və sanatoriyaların təşkili üçün əhəmiyyətli ola bilər. Respublikamızda qeyri-kredit investisiyaların əksər hissəsi neft sektoruna yönəlsə də, digər sahələr - tikinti, nəqliyyat və rabitə, ticarət və xidmət sahələrinə vəsait qoyuluşları da perspektivlidir. Ölkədə qeyri-neft sektorunun istehsal infrastrukturunun keyfiyyətinin yüksəldilməsi üçün birbaşa xarici investisiyaların nəqliyyat, informasiya və kommunikasiya, kommunal-təsərrufat infrastrukturunun texniki bazasının gucləndirilməsi və gostərilən xidmətin keyfiyyətinin yaxşılaşdırılmasına yönəldilməsi də məqsədəuyğun hesab edilir. Qeyd edilən sahələrdə kifayət qədər təcrübəsi olan Almaniya investorlarının bu imkanlardan istifadə etməklə Azərbaycanda sərmayə yatıra və ya yeni şirkətlər qura bilərlər. Hazırda istər Almaniya ilə beynəlxalq iqtisadi əməkdaşlığın və onun mühüm forması olan muştərək sahibkarlığın genişləndirilməsi çox vacibdir. Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması üçün birbaşa xarici investisiyaların yeni texnika və texnologiyanın, maşın və avadanlıqların ölkəyə gətirilməsinə üstünlük verilməkdədir. Lakin onu da nəzərə almaq lazımdır ki, yeni texnika və texnologiyaların, texniki qurğuların, maşın və avadanlıqların istehsalını təşkil etməkdə sənaye ölkələrinin transmilli korporasiyaları o qədər də səy göstərmirlər. Azərbaycanın ərazisində birbaşa investisiya yatıran Beynəlxalq korporasiya və şirkətlər ən yaxşı halda, maşın və texnoloji qurğuların komplektləşdirici hissələrinin istehsalı və ya yarımcıq istehsalatların təşkilinə üstünlük verirlər.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Azərbaycana birbaşa xarici investisiyaların cəlb edilməsində Almaniya ilə müştərək müəssisələrin yaradılmasında mövcud problemlər**

Almaniya ilə 2020-ci ilin yanvarın 1-nə olan məlumatlara əsasən Azərbaycanda xarici müəssisələrin sayı 11145, birgə müəssisələrin sayı 2870 olmuşdur. Reyestrdə qeydiyyatdan keçmiş tam xarici investisiyalı və birgə müəssisələr əsasən Türkiyə (23,7%), İran (10,5%), Rusiya (5,3%), Böyük Britaniya (5%), ABŞ (2%) və Almaniya (1,2%) ölkələrinin sahibkarları tərəfindən yaradılıb. 2018-ci ildə ölkə üzrə fəaliyyət göstərən 1765 xarici və birgə müəssisədən: 475-i (26,9%-i) Türkiyəyə; 110-u (6,2%-i) İngiltərəyə; 102-i (5,8%-i) Rusiyaya; 67-i (3,8%-i) BƏƏ-yə; 60-ı (3,4%-i) İrana; 33-ü (1,9%-i) Almaniyaya məxsus olmuşdur. Ölkə üzrə qeydiyyatda olan xarici və birgə müəssisələrin: 42,7%-i ticarət, nəqliyyat vasitələrinin təmiri; 17,9%-i sənayedə; 8%-i tikintidə; 9,7%-i peşə, elmi və texniki fəaliyyət sahəsində fəaliyyət göstərir. Almaniya ilə xarici və birgə müəssisələrdən 7-i ticarət, nəqliyyat vasitələrinin təmiri; 5-i peşə, elmi və texniki fəaliyyət; 4-ü tikinti; hər birində 3 üəssisə olmaqla – sənaye; nəqliyyat və anbar təsərrüfatı; informasiya və rabitə sahəsində fəaliyyət göstərir. Azərbaycanda xarici və birgə müəssisələr üzrə yüklənmiş malların, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin dəyərinin: 79,3%-i sənayenin; 7%-i nəqliyyat və anbar təsərrüfatının; 5,3%-i tikintinin; 3,4%-i peşə, elmi və texniki fəaliyyət sahələrinin payına düşür. Almaniya ilə yaradılmış xarici və birgə müəssisələr üzrə yüklənmiş malların, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin dəyərinin: 43,9%-i peşə, elmi və texniki fəaliyyət; 35,5%-i informasiya və rabitə; 7,9%-i tikinti; 6,1%-i sənaye sahələrində yaradılmışdır.

Azərbaycanın xarici və birgə ticarət, nəqliyyat vasitələrinin təmiri üəssisələri üzrə pərakəndə ticarət dövriyyəsində Almaniyanın payı cüzidir. Eyni zamanda muzdla çalışanların 1.2%-i birgə formada olan kiçik və orta müəssisələrin payına düşür. Hazırda iqtisadiyyatda ticarətdə birgə müəssisələr üstünlük təşkil edir. Bəzi alman enerji şirkətləri neft-qaz sektorunda geoloji-kəşfiyyat və istehsal fəaliyyətlərinə maraq göstərirlər. 2015-ci ilin may ayında "Uniper" (Eon) və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) arasında birgə müəssisə yaradılmışdır. Birgə müəssisə SOCAR-ın Sumqayıt şəhərində yerləşən Azərikimya kompleksində elektrik və buxar istehsal edən qurğuları səmərəliləşdirməklə əlavə dəyər əldə edəcək [4].



**Nəticə**

Uzunmüddətli dövrdə nisbətən yüksək texnologiyaların ölkəyə gətirilməsi və Azərbaycanda onların istehsalının təşkil olunması üçün əvvəla, bu sahədə uğur qazanmış transmilli şirkətlərin ölkəyə cəlb olunması məqsədəuyğundur. İkincisi, bu sahədə peşəkar kadrların yetişdirilməsi tələb olunur ki, bu da müəyyən bir müddətdən sonra mümkün ola bilər. Almaniya ilə Azərbaycan birgə müəssisələrin məhdud saya malik olması ölkəmizə qeyri-neft sektoru üzrə birbaşa xarici investisiya cəlbindəki problemləri göstərir. Ölkədə qeyri-neft sektorunun davamlı inkişafı üçün texnoloji yenilənmə və rəqabətli istehsalın formalaşdırılması zərurətini nəzərə alaraq Almaniya ilə ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi buna mühüm töhfə verə bilər.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Ədəbiyyat**

1. "Azərbaycan 2020: Gələcəyə baxış "inkişaf konsepsiyası, Bakı 2012.
2. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. https://static.president.az/pdf/38542.pdf
3. Qənbərov F. Azərbaycanda xarici iqtisadi əlaqələrin modernləşməsi istiqamətləri. Azərbaycan MEA Məruzələr, № 2, 2012. s.122-130.
4. https://www.economy.gov.az/ Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi.
5. https://apa.az/
6. https://news.day.az/azerinews/1196482.html
7. https://minenergy.gov.az/
8. https://www.cbar.az/page-43/external-sector-statistics
9. https://ru.wikipedia.org/wiki/ Список стран по ВВП (ППС)
10. https://www.belta.by/world/view/v-2020-godu-mezhdunarodnaja-torgovlja-sokratilas-na-9-428352-202
11. https://president.az/
12. https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ Azərbaycanın statistik göstəriciləri. 2020, Bakı 2020
13. https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ Azərbaycanda tikinti. Statistik məcmuə. 2020
14. https://www.stat.gov.az/source/entrepreneurship/ Xarici və birgə müəssisələrin işinin əsas göstəriciləri. Statistik Bülleten. ARDSK, 2018,

***Гюнай Танриверди кызы Алиева***

***Перспективы расширения экономического сотрудничества Азербайджана с Германией***

***Резюме***

*В статье исследуются потенциальные возможности Азербайджана для расширения экономического сотрудничества с Германией, сферы бизнеса и экономического сотрудничества между Азербайджаном и Германией в области энергетики, энергетической безопасности Европы и энергетических потребностей Германии, а также возможности Азербайджана для их удовлетворения. Здесь вносятся предложения по развитию экономических отношений с Германией в благоприятном для Азербайджана направлении с целью формирования эффективной внешнеинвестиционной деятельности Азербайджанских компаний. Также в контексте привлечения прямых иностранных инвестиций в Азербайджан выявляются существующие проблемы в создании и развитии совместных предприятий с Германией и увеличение взаимных инвестиций. Анализируется важность создания германо-азербайджанских совместных предприятий и взаимных инвестиций, а также показаны пути реализации этих возможностей в соответствующих экономических сферах. С точки зрения перспектив развития считается приемлемым создание совместного предприятия с Германией или увеличение участия прямых иностранных инвестиций в Азербайджане для укрепления материально-технической базы химической и металлургической промышленности, машиностроения и производства строительных материалов, пищевой и легкой промышленности и аграрный сектор.*

***Ключевые слова:*** *экономическое сотрудничество, экономические связи, энергетическая безопасность, иностранные инвестиции, иностранный капитал, прямые инвестиции, совместные предприятия.*

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

***Gunay Tanriverdi Aliyeva***

***Prospects for expanding economic cooperation between Azerbaijan and Germany***

***Summary***

*The article explores the potential of Azerbaijan for expanding economic cooperation with Germany, business and economic cooperation between Azerbaijan and Germany in the field of energy, energy security of Europe and energy needs of Germany, as well as Azerbaijan's capabilities to meet them. Here, proposals are made on the development of economic relations with Germany in a direction favorable to Azerbaijan with the aim of forming an effective foreign investment activity of Azerbaijani companies. Also, in the context of attracting foreign direct investment in Azerbaijan, the existing problems in the creation and development of joint ventures with Germany and an increase in mutual investments are identified. The importance of creating German-Azerbaijani joint ventures and mutual investments is analyzed, as well as ways of realizing these opportunities in the relevant economic spheres are shown. From the point of view of development prospects, it is considered acceptable to create a joint venture with Germany or increase the participation of foreign direct investment in Azerbaijan to strengthen the material and technical base of the chemical and metallurgical industry, mechanical engineering and production of building materials, food and light industry and the agricultural sector.*

***Key words****: economic cooperation, economic ties, energy security, foreign investment, foreign capital, direct investment, joint ventures.*

***Elmi redaktor: i.f.d., dos.Y.Məmmədov.***
***Daxil olub: 08.11.2021.***
***Çapa qəbul olunub: 15.11.2021.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*